AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

1/2025

**E-ISSN 3134-7231**

**Bakı – 2025**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ CAMPİERO**
Professor; Venesiya Ka Foskari Universiteti, İtaliya
**CAVADİ HƏSƏN**
Professor; Kaliforniya Universiteti, ABŞ
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**ÇALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Professor; Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDA**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Professor; Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Professor; İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OÇİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİYEV ŞODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Professor; Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 1, 2025. – 176 səh. Bakı, BDU, 2025.

© Bakı Dövlət Universiteti, 2025

# ƏDƏBİYYATŞÜNASLIQ

*Aida QASIMOVA*
**“BAXIŞLAR ONU GÖRƏ BİLMƏZ”: KLASSİK AZƏRBAYCAN POEZİYASINDA GÖZ VƏSFİNİN NƏZƏRİ-ESTETİK ÇALARLARI**
“No Vision Can Encompass Him”: The Theoretical and Aesthetic Aspects Of Eye Description In Classical Azerbaijani Poetry **11**
https://doi.org/10.30546/209805.2025.101.2.1051

*Aydan XƏNDAN*
**XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRK ƏDƏBİYYATINDA KÖHNƏDƏN YENİYƏ KEÇİD VƏ ƏDƏBİ CƏRƏYANLAR**
Transition From Old To New And Literary Currents In Turkish Literature At The End Of The 19th Century And Early 20th Century **25**
https://doi.org/10.30546/209805.2025.101.2.1056

*Nigar İSMAYILZADƏ*
**XV ƏSR TƏSƏVVÜF POEZİYASINDA ZÜMRƏ ƏDƏBİYYATI VƏ İLAHİ EŞQ**
Zumra Literature And Divine Love In 15th-Century Sufi Poetry **38**
https://doi.org/10.30546/209805.2025.101.2.1015

*Rafael HÜSEYNOV*
**SHAHRASHUB IN EASTERN POETRY AND NATIONAL SELF-EXPRESSION IN URDU SHAHRASHUBS**
Şərq şeirində şəhraşub və urdu şəhraşublarında milli özünüifadə **45**
https://doi.org/10.30546/209805.2025.101.2.1064

*Şəhla ABDULLAYEVA*
**SÖZLƏ SEYR EDƏN RUH: ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİ**
A Soul Journeying Through The Word: Farid Al-Din Attar Of Nishapur **69**
https://doi.org/10.30546/209805.2025.101.2.1029

# DİLÇİLİK

*Əsmətxanım MƏMMƏDOVA*
**FARS DİLİNDƏ KİPLƏŞƏN SAMİT BİRLƏŞMƏLƏRİNİN FONETİK SƏCİYYƏSİ (NİZAMİ GƏNCƏVİNİN “XƏMSƏ”Sİ ƏSASINDA)**
Phonetic Characteristics Of Consonant Clusters In Persian (Based On Nizami Ganjavi`s “Khamsa”) **81**
https://doi.org/10.30546/209805.2025.101.2.1046

*Heybət HEYBƏTOV*
**ŞAHİD BEYTLƏRİN FİLOLOJİ ƏHƏMİYYƏTİ**
The Philological Significance Of Shahid Bayts **95**
https://doi.org/10.30546/209805.2025.101.2.1035

## TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR

*Əsgər RƏSULOV*
**TÜRK DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏDƏ YALANÇI EKVİVALENT PROBLEMİ**
False Equivalents Problem In The Turkish-Azerbaijani Translation **109**
https://doi.org/10.30546/209805.2025.101.2.1075

*Eldost İBRAHİMOV*
**RƏQƏMSAL TEXNOLOGİYA DÖVRÜNDƏ TƏRCÜMƏŞÜNASLIQDA SÜNİ İNTELLEKT VƏ İNSAN AMİLİ**
Artificial Intelligence And Human Factor In Translation In The Era Of Digital Technology **122**
https://doi.org/10.30546/209805.2025.101.2.1012

*Gülnar ƏQİQ CƏFƏRZADƏ*
**ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİ. "ŞEYX SƏNAN" HEKAYƏTİ**
Sheikh Faridaddin Attar Nishapuri. The Story Of "Sheikh Sanan" **129**
https://doi.org/10.30546/209805.2025.101.2.1001

## TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*Kəmalə NURİYEVA*
**ABBASQULU AĞA BAKIXANOV. RİYAZÜL-QÜDS (ilk tam nəşri haqqında)**
Abbasqulu Agha Bakikhanov. Riyāż Al-Quds (About The First Complete Edition) **151**
https://doi.org/10.30546/209805.2025.101.2.1058

*Rafael HÜSEYNOV*
**ƏRƏB ƏDƏBİYYATINDAKI SİRƏLƏRƏ AZƏRBAYCAN ŞƏRQŞÜNASLIĞINDAKI İLK KOMPLEKS YANAŞMADA MÜSBƏT VƏ DƏQİQLƏŞDİRİLMƏLİ MƏQAMLAR**
Positive Points To Be Clarified In The First Comprehensive Approach To Siras In Arabic Literature Within Azerbaijani Oriental Studies **155**
https://doi.org/10.30546/209805.2025.101.2.1023

**APA7 qaynaq göstərmə təlimatı** **172**

**Nəşrə dair tələblər** **174**

**Publication requirements** **175**

# ƏDƏBİYYATŞÜNASLIQ



**UOT 821.222.1**
**DOI** https://doi.org/10.30546/209805.2025.101.2.1029

# SÖZLƏ SEYR EDƏN RUH: ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİ

**ŞƏHLA ABDULLAYEVA***

**Xülasə**

*XII-XIII əsrlərin farsdilli sufi ədəbiyyatının görkəmli nümayəndələrindən olan Fəridəddin Əttar Nişapuri Şərq irfani düşüncəsinin formalaşmasında mühüm rol oynamışdır. Onun yaradıcılığı sufi poeziyasında məsnəvi janrının inkişafı, rəmzi-bədii təfəkkürün dərinləşməsi və irfani anlayışların sistemli poetik ifadəsi ilə sıx bağlıdır. Əttarın əsərlərinin bir çox sonrakı dövr sufi şairlərinin, xüsusilə Mövlana Cəlaləddin Ruminin fəlsəfi-irfani dünyagörüşünün formalaşmasında əhəmiyyətli təsiri olmuşdur.*

*Əttarın həyatı və bədii irsi ilə bağlı ilkin mənbələrdə təqdim olunan məlumatlar əksər hallarda əfsanəvi xarakter daşıyır və bir-biri ilə ziddiyyət təşkil edir. Şairin doğum və vəfat tarixləri, həmçinin, ona aid edilən əsərlərin sayı uzun müddət mübahisə predmeti olmuşdur. Bu səbəbdən Əttarın şəxsiyyəti və yaradıcılığına dair məsələlərin tənqidi-müqayisəli yanaşma əsasında araşdırılması xüsusi aktuallıq kəsb edir.*

*Təqdim olunan məqalədə Fəridəddin Əttar Nişapurinin həyatı ilə bağlı mübahisəli məqamlar ilkin və elmi qaynaqlar əsasında təhlil edilir. Həmçinin, şairə aidliyi şübhəsiz hesab olunan əsərlər – “İlahinamə”, “Əsrarnamə”, “Məntiqüt-teyr”, “Müsibətnamə”, “Təzkirətül-Övliya”, qəzəl və qəsidələr “Divan”ı, “Muxtarnamə” rübailər toplusu haqqında ümumi məlumat verilir.*

**Açar sözlər:** *Fərideddin Əttar Nişapuri, “İlahinamə”, “Əsrarnamə”, “Məntiqüt-teyr”, “Müsibətnamə”, “Təzkirətül-Övliya”, “Divan”, “Muxtarnamə”, ilkin qaynaqlar*

## Giriş

XII-XIII əsrlər farsdilli sufi ədəbiyyatının görkəmli nümayəndələrindən olan Fəridəddin Əttar Nişapuri Şərq irfani düşüncəsinin formalaşmasında mühüm rol oynamış mütəfəkkirlərdəndir. Onun yaradıcılığı zahiri hekayətçilikdən batini mənaya doğru yönələn mənəvi seyrin bədii təcəssümü kimi səciyyələnir. Adı sufi poeziyasında məsnəvi janrının inkişafı, rəmzi-bədii təfəkkürün dərinləşməsi və irfani anlayışların sistemli poetik ifadəsi ilə sıx bağlı olan Fəridəddin Əttarın əsərlərinin bir çox sonrakı dövr sufi şairlərinin, xüsusilə Mövlana Cəlaləddin Ruminin fəlsəfi-irfani dünyagörüşünün formalaşmasında əhəmiyyətli təsiri olmuşdur.

Əttarın həyatı və bədii irsi ilə bağlı ilkin mənbələrdə təqdim olunan məlumatlar əksər hallarda əfsanəvi xarakter daşıyır və bir-biri ilə ziddiyyət təşkil edir. Şairin doğum və vəfat tarixləri, həmçinin, ona aid edilən əsərlərin sayı uzun müddət mübahisə predmeti olmuşdur. Təqdim olunan məqalədə Fəridəddin Əttar Nişapurinin həyatı ilə bağlı mübahisəli məqamlar ilkin və elmi qaynaqlar əsasında təhlil edilir. Həmçinin, şairə aidliyi şübhəsiz hesab olunan əsərləri haqqında ümumi məlumat verilməklə yanaşı, bu

* Filologiya elmləri üzrə fəlsəfə doktoru; İctimai-Siyasi Sənədlər Arxivi; abdullayevashakhla@gmail.com; https://orcid.org/0000-0003-3467-0881

məşhur arifin bədii-fəlsəfi irsinin əsas xüsusiyyətləri qısa, lakin sistemli şəkildə şərh edilir.

## 1. Fəridəddin Əttarın həyatı

Şeyx Fəridəddin Əttar Nişapurinin həyat və yaradıcılığı ilə bağlı ilkin mənbələrdə kifayət qədər məlumat mövcuddur. Lakin bu məlumatlar əksər hallarda əfsanəvi xarakter daşıyır, bəzən isə bir-birinə zidd məzmun kəsb edir. Bu baxımdan onları tam etibarlı mənbə hesab etmək doğru deyil. Bununla belə, Əttarın adı çəkilən təzkirələr müasir tədqiqatlar üçün mühüm mənbə rolunu oynayır və həmin mənbələrin tənqidi-müqayisəli təhlili şairin həyat və yaradıcılığı haqqında daha obyektiv və dolğun məlumatların əldə olunmasına imkan yaradır.

Şair haqqında ilkin mənbələrdən əldə olunan məlumatlardan belə nəticə çıxarmaq olar ki, adı Məhəmməd, künyəsi Əbu Hamid, ləqəbi Fəridəddin, təxəllüsü Əttar və ya Fərid, atasının adı İbrahim, künyəsi Əbu Bəkr olmuş (Şəfii Kədkəni, 1380: 34; Oufi, 1321: 337; Modərres, 1369: 145) Fəridəddin Əttar Nişapurda, bəzilərinə görə isə Kədkən və ya Şadyaxda dünyaya gəlmişdir (Nağısoylu, 2005: 6; Axworthy, 2007: 99; Bettina, 1984: 315; Ethe, 1980: 612; Əşrəfzade, 1373: 13; Haeri, 1381: 149; Səmərğəndi, 1318: 187; Əttar Nişapuri, 1375a: 25).

Əttarın doğum tarixi haqqında ilk məlumata Dövlətşah Səmərqəndinin (v.1507) “Təzkirətüş-şüəra” (“Şairlər haqqında təzkirə”) (tam.1487) adlı məşhur əsərində rast gəlinir. Səmərqəndi şairin h.513-cü il şaban ayının 6-sı/11 noyabr 1119-cu ildə dünyaya gəldiyini qeyd edir (Səmərğəndi, 1318: 187). Rzaqulu xan Hidayətin (1800-1871) “Riyazül-arifin” (“Ariflərin bağçası”) təzkirəsində isə doğum tarixi kimi h.512/m.1118-ci il göstərilir (Hedayət, 1305: 111). Bəzi tədqiqatçılar Dövlətşahın qeyd etdiyi tarixi qəbul etsələr də (Knış, 2004: 172; Ethe, 1980: 612), bir sıra tanınmış alim və araşdırıcılar şairin fərqli tarixlərdə – h.537/m.1142-ci, h.539/m.1145-ci və ya h.540/m.1146-cı ildə doğulduğunu yazır (Haeri, 1381: 149; Səfa, 1372: 858; Əttar Nişapuri, 1377: 14; Бертельс, 1965: 340; Əşrəfzade, 1373: 13; Zərrinkub, 1378: 26; Şəcii, 1378: 281; Nurbəxş, 1384: 137). Şəfii Kədkəni yuxarıdakı tarixlərin heç biri ilə razılaşmayaraq şairin doğum tarixini h.553/m.1158-ci il kimi qəbul edir (Şəfii Kədkəni, 1380: 65). Alim qeyd edir ki, 140 şairin həyat və yaradıcılığından bəhs edən Dövlətşah Səmərqəndi yalnız 3 şairin (o cümlədən, Əttarın) doğum və vəfat tarixini ay və günləri ilə göstərmişdir və bu səbəbdən, onun qeyd etdiyi tarixə inanmaq məqsədəuyğundur. Əttarın doğum tarixi kimi göstərilən 513-cü il isə qədim təzkirə yazı üslubunda “əşərə” (on) sözü ilə “xəmsinə”nin (əllinin) təshifi (hərflərin nöqtələrinin yerinin dəyişdirilməsi və ya artırılıb-azaldılması) ola bilər. Bu amil nəzərə alındıqda, şairin doğum tarixi 553-cü ilə bərabər olur (Şəfii Kədkəni, 1380: 62-65). Şəfii Kədkəninin bu tarix üçün gətirdiyi dəlil, ehtimal şəklində söylənməsinə baxmayaraq, digər tarixlərə nisbətən həqiqətə daha yaxındır. Belə ki, Əttar haqqında ən qədim qaynaq olan “Lübabül-əlbab” əsərinin müəllifi şairin adını Sultan Səncər (1117-1157) dövründən sonra yaşamış şairlər bölümündə qeyd edir, Əttar da öz əsərlərində Sultan Səncərdən dünyadan köçmüş bir şəxs kimi bəhs edir. Bununla yanaşı, şairin “Müsibətnamə” əsərində Nişapurda baş vermiş qıtlığa başqalarının dilindən işarə olunur (Əttar Nişapuri, 1383b: 251, 267). Tarixi mənbələrə görə, XII əsrdə Xorasanda cəmi üç dəfə ağır qıtlıq illəri olmuşdur – h.532/m.1137, h.543/m.1148 və h.552/m.1157-ci illər (Əttar Nişapuri, 1339: 34). Şair bu qıtlıq illərindən birini görmüş olsaydı, bu barədə başqasının dilindən deyil, şahidi olduğu hadisə kimi yazardı. Bundan başqa, h.553/m.1158-ci ildə Nişapurda əttarlar

bazarı yandırılmışdı (Heydərxani, 1376: 96) və özü əttar olan şair bu məsələyə heç bir işarə etməmişdir. Buradan belə nəticəyə gəlmək olar ki, həmin hadisələrin heç birinin şahidi olmayan, yaxud o zamanlar çox kiçik olan Fəridəddin Əttar h.550/m.1155-ci ildən sonra dünyaya gəlmişdir.

Şairin vəfat tarixi barədə də qaynaqlarda tam dəqiq məlumat yoxdur. Görkəmli İran alimi Səid Nəfisinin (1895-1966) araşdırmasına görə, ilkin qaynaqlarda Fəridəddin Əttarın vəfatı ilə bağlı 16 fərqli tarix qeyd edilmiş və bu tarixlər arasında ən çox, yəni 29 dəfə h.627/m.1230-cu il və 7 dəfə h.619/m.1221-ci il göstərilmişdir (Nəfisi, 1320: sin-cim). Bununla belə, demək olar ki, bütün tədqiqatçılar tərəfindən şairin monqol-tatar hücumu zamanı qətlə yetirilməsi qəbul olunmuşdur.

Hülakülər dövrünün məşhur tarixçisi Əlaəddin Ətaməlik Cüveyni (1226-1272) "Tarixi-cəhangüşayi-Cüveyni" ("Cüveyninin dünyanın fəthi tarixi") (tam.1257) adlı əsərində monqolların şənbə günü, 15 səfər 618-ci ildə, yəni miladi tarixlə 10 aprel 1221-ci ildə Nişapurda soyqırımı törətdiklərini yazır (Coveyni, 1385: 139). Cüveyninin qeyd etdiyi tarixə və Əttarın monqolların Nişapura hücumu zamanı öldürülməsi faktına əsaslanan bir çox müəlliflər şairin vəfat tarixi olaraq həmin h.618/m.1221-ci ili qəbul etmişlər (Əşrəfzade, 1373: 13; Şəcii, 1378: 281; Nurbəxş, 1384: 138; Əttar Nişapuri, 1376: 12). Bəzi alimlər isə Hülakü xanın h.627/m.1229-cu ildə Xorasana hücum etməsinə əsaslanaraq, həmin ili Əttarın ölüm tarixi kimi qəbul etmişlər (Knış, 2004: 172; Ethe, 1980: 612; Sells, 1996: 25; Şəfii Kədkəni, 1380: 48; Modərres, 1369: 149; Nəfisi, 1344: 205; Nəzmi, 1378: 412; Hedayət, 1305: 111). Şairin əsərlərində özünün ən son olaraq "həftadü ənd"ə, yəni yaşının yetmişdən yuxarı olmasına işarə etdiyini və h.553/m.1158-ci ildə dünyaya gəldiyini nəzərə alsaq, vəfat tarixi olaraq h.627/m.1229-cu ilin qəbul edilməsini həqiqətə daha yaxın hesab etmək olar.

## 2. Fəridəddin Əttarın əsərləri

Sufi ədəbiyyatının formalaşması və inkişafında mühüm mərhələ təşkil edən Fəridəddin Əttarın ədəbi irsi əsasən irfani dünyagörüşün ifadəsi üçün funksional baxımdan daha əlverişli olan məsnəvi janrında qələmə alınmış əsərlərdən ibarətdir. Bu əsərlərdə irfani məzmun, bir qayda olaraq, qısa mənzum qissə və hekayətlər vasitəsilə təqdim edilir. Həcm etibarilə kiçik olmasına baxmayaraq, sözügedən hekayətlər mürəkkəb fəlsəfi-mistik ideyaların, simvolik məna qatlarının və dərin sufi düşüncələrinin ifadəsi üçün geniş imkanlar yaradır.

Əttarın əsərlərinin sayı barədə təzkirə sahibləri mübaliğəyə yol vermiş, onun qələminə məxsus beytlərin ümumi sayını yüz mindən çox, kitablarının sayını isə 114 – Quran surələrinin sayı qədər göstərmişlər (Səmərğəndi, 1318: 95; Hedayət, 1305, 111).

Çoxsaylı qaynaqlarda Fəridəddin Əttara aid edilən əsərlərə "Məntiqüt-teyr", "İlahinamə", "Əsrarnamə", "Müsibətnamə", "Təzkirətül-övliya", "Muxtarnamə", "Xosrovnamə", "Bülbülnamə", "Şərhül-qəlb", "Lisanül-qeyb", "Məzhərül-əcayib", "Bisərnamə", "Həllacnamə", "Pəndnamə", "Siyahnamə", "Şütürnamə", "Gül və Hürmüz", "Meracnamə", "Kənzül-əsrar", "Kənzül-həqayiq, "Hüd-hüdnamə", "Məxzənül-əsrar", "Cəvahirnamə", "Cümcümənamə" və s. göstərmək olar.

Görkəmli alim A.Knış Əttarın əsərlərini üç qrupa ayırır: I qrupa o, "Müsibətnamə", "Məntiqüt-teyr" və bu növ əsərləri, II qrupa "Üştürnamə", "Cövhərüz-zat", III qrupa isə "Məzhərül-əcayib", "Lisanül-qeyb" və bu kimi əsərləri aid edir və bildirir ki, bu qruplar

arasında fərq o qədərdir ki, onların hamısının bir şairin qələmindən çıxdığına inanmaq qeyri-mümkündür (Кnış, 2004:173).

Fəridəddin Əttar son əsərlərindən olan "Muxtarnamə"nin müqəddiməsində "Xosrovnamə", "Əsrarnamə", "Məqamati-tüyur", "Divan", "Müsibətnamə" əsərlərinin adını çəkir, bundan başqa, "Şərhül-qəlb" və "Cəvahirnamə" adlı iki əsər yazdığını, lakin onları yandırdığını qeyd edir (Əttar Nişapuri, 1375b: 70, 72).

"Muxtarnamə"nin müqəddiməsində adı keçən əsərlərin ilki olan "Xosrovnamə" məsnəvisi, daha doğrusu, bugünümüzə Fəridəddin Əttarın "Xosrovnamə" əsəri olaraq gəlib çatmış əsər Əttar qələminin məhsulu deyil. Həmin əsər Əttarın digər məsnəvilərindən istər üslub, istər ədəbi dəyər baxımından çox fərqlənir və Şəfii Kədkəninin qeyd etdiyi kimi, böyük ehtimalla, XIV əsrdə yaşamış bir şairə məxsusdur (Şəfii Kədkəni, 1380: 39).

Əttarın öz sözlərinə istinad etsək, "Xosrovnamə" əsəri "Muxtarnamə"dən əvvəl yazılmışdır, belə ki, bu məsnəvinin adına "Muxtarnamə"də rast gəlirik. Lakin "Xosrovnamə" əsərində müəllifin "Muxtarnamə"dən söz açması (Əttar Nişapuri, 1339: 30) Şəfii Kədkəninin fikrini bir daha təsdiqləyir. Şəfii Kədkəni Əttarın "Xosrovnamə" adlı əsəri olduğunu, lakin bu gün bu adla tanınan əsərin Fəridəddin Əttara məxsus olmadığını geniş izah edərək tarixi və nəzəri dəlillər gətirmiş, "Muxtarnamə"də "Xosrovnamə" adlandırılan əsərin hazırda "İlahinamə" adı ilə əlimizdə olan məsnəvi olduğunu isbata yetirmişdir (bax: Əttar Nişapuri, 1375b: 35-59). Alim əslində "Xosrovnamə"nin XIII əsrdən etibarən üzü köçürülərkən katiblər tərəfindən "İlahinamə" adlandırıldığını bildirir. Belə ki, hansısa katib məsnəvinin üzünü köçürərkən bu beyti əlavə etmişdir:

الهی! نامه را آغاز کردم
به نامت باب نامه باز کردم

Tərcüməsi: *İlahi! Naməni başladım; Sənin Adın ilə namə qapısını açdım.*

Beləliklə, "İlahi, naməni başladım" misrası sonradan "İlahinaməni başladım" kimi oxunmuş və bu əsər "İlahinamə" adını almışdır (Şəfii Kədkəni, 1380: 38).

Tədqiqatçılar şairin ədəbi dili və üslubunu nəzərə alaraq, Əttara aid edilən əsərlər sırasında Əttar qələminə aidliyi şəksiz olan əsərlərin sayının 9 olduğunu qəbul edirlər. Bunlar: "İlahinamə", "Əsrarnamə", "Məntiqüt-teyr", "Müsibətnamə", "Divan" (qəzəl və qəsidələr divanı), "Muxtarnamə" (rübailər toplusu), "Cəvahirnamə", "Şərhül-qəlb" və "Təzkirətül-övliya" əsərləridir (Zərrinkub, 1378: 208; Əttar Nişapuri, 1375b: 34, 70; Nəfisi, 1320: 258).

## 3. Fəridəddin Əttar əsərlərinin yığcam şərhi

Fəridəddin Əttarın əsərləri şairin başlıca hədəf və məqsədini oxucuya çatdırmağa xidmət edən, əsərin əsas məramına birbaşa bağlı olaraq, əsas motiv üçün bir növ naxış rolunu oynayan yardımçı hekayət və təmsillərlə zəngindir. Bu dərin rəmzi mənaya malik gizli məfhumlarla dolu hekayət və təmsillərdə övliya və din xadimləri, şah və məliklər haqqındakı əhvalatlarla yanaşı, Şərq ədəbiyyatında geniş yayılmış aşiq-məşuq münasibətləri də öz əksini tapmışdır.

Şəfii Kədkəni Əttarın digər sufi şairlərindən fərqli olaraq, məcazlara, söz oyunlarına o dərəcədə fikir vermədiyini, əsərlərində irfani rəmzlərə geniş yer versə də,

öz fikrinin ifadəsində sırf sufi istilahlarından az istifadə etdiyini və bunun da onun əsərlərini bir çox sufi şairlərinin əsəri kimi "sufi terminləri lüğəti"nə bənzəməkdən xilas etdiyini yazır (Şəfii Kədkəni, 1380: 60)

"İlahinamə" ("Xosrovnamə") əsəri irfani mövzu və nəzəriyyəni dastan, hekayət, nəsihət, müdriklərin söhbətləri ilə anladan, əsasən Quran ayələri və hədislərə istinad edən əsərlərdəndir. Əsərin əlimizdə olan nüsxəsi 6.966 beytdən ibarətdir. Məsnəvi müqəddimə, altı fəsil və xatiməyə bölünüb, ümumi olaraq 22 məqalə, 265 hekayəti ehtiva edir (Əttar Nişapuri, 1384a). Əsərin ən qədim əlyazma nüsxəsi h.644/m.1246-cı ilə aiddir (Ketabşenasi, 1374: 78).

Dastan müdrik, qüdrətli bir xəlifə və onun altı oğlu haqqındadır. Oğlanlardan hər birinin ürəyində çatmaq istədiyi bir arzusu var. Məsnəvidəki altı məqalədə altı oğlun arzusu və atanın cavabları öz əksini tapmışdır. Birinci oğul pərilər şahının qızına aşiqdir və onun vüsalını arzulayır. İkinci oğul sehr və cadu aşiqidir. Üçüncü oğul Cəmşidin camını, dördüncü dirilik suyunu, beşinci Süleymanın üzüyünü axtarır. Altıncı oğul isə kimyagər olmaq istəyir. Ata öz cavablarında bu arzuların əbəs olduğunu anladır, oğullarına məsləhət görür ki, bu nəfsani arzularından əl çəkib, ilahi aləmə ürək bağlasınlar. Burada Əttar ata-oğul söhbətlərinin, təmsil və hekayətlərin köməyi ilə bir çox irfani, əxlaqi və ictimai məsələlərdən, tələb, tövbə, eşq, heyrət, təvəkkül və bu kimi irfani anlayışlardan söz açır.

"Əsrarnamə" məsnəvisi Fəridəddin Əttarın qələmə aldığı ən qısa məsnəvidir və 3.305 beytdən ibarətdir (Əttar Nişapuri, 1383a). Əsərin ən qədim əlyazma nüsxəsi h.670/m.1271-ci ilə aiddir (Ketabşenasi, 1374: 67).

Əsəri təşkil edən 22 məqalədə Əttar təsəvvüfün 12 əsas bəndinin izahını verməyə çalışmış və hər izah üçün kiçik hekayət və təmsil gətirmişdir. Birinci məqalə tövhid və onun sirləri, sonuncu məqalə isə Əttarın halları və hikmətin bəyanı, şairin şeir söyləmə sirləri haqqındadır.

Rəvayətə görə, Əttar "Əsrarnamə" əsərini dahi Mövlanaya hədiyyə etmişdir. Dövlətşah Səmərqəndiyə görə, Bəhaəddin Vələd (1148-1231) Xarəzmşah Əlaəddin Məhəmmədin (v.1220) ondan narazılığı üzündən 1220-ci ildə (bəzi mənbələrdə 1213) ailəsi ilə birgə Bəlxi tərk etdikdən sonra Nişapurdan keçərkən Əttarla görüşür və Əttar öz "Əsrarnamə" məsnəvisinin bir nüsxəsini kiçik Mövlanaya bağışlayır (Səmərğəndi, 1318: 193). Mövlana öz məşhur məsnəvisində "Əsrarnamə"dəki bir sıra hekayətlərdən, o cümlədən, "Ağcaqanadın küləkdən şikayəti" (Əttar Nişapuri, 1383a: 55; Moulana, 1377: 547), "Öz əksini suda görən zənci" (Əttar Nişapuri, 1383a: 66; Moulana, 1377: 293), "Siçan və dəvənin hekayəti" (Əttar Nişapuri, 1383a: 174; Moulana, 1377: 325) və s. istifadə etmişdir.

"Məntiqüt-teyr" məsnəvisi Fəridəddin Əttarın şah əsəridir və nəinki Şərq dünyasında, bütün dünyada sufi ədəbiyyatının ən məşhur nümunələrindən biri hesab edilir. Əsərin bütün dünyada çoxsaylı əlyazma nüsxələrinin mövcudluğu onun ifrat məşhurluğunun sübutu kimi qəbul edilə bilər. "Məntiqüt-teyr" giriş, kitabın başlanğıcı və 24 bölümdən ibarətdir. Bu bölümlər də özlüyündə bir sıra kiçik hissələrə, yəni hekayət və təmsillərə bölünür. Çox maraqlı kompozisiyası, sadə, lakin eyni zamanda zəngin dili olan bu məsnəvidə beytlərin sayı müxətlif nüsxələrdə 4.584-dən 6.724-ə qədərdir (Əttar Nişapuri, 1375a; Əttar Nişapuri, 1384b). Əsərin ən qədim əlyazma nüsxəsi h.644/m.1246-cı ilə aiddir (Ketabşenasi, 1374: 142).

Adından göründüyü kimi, "Məntiqüt-teyr" əsəri rəmzi məzmunlu alleqorik məsnəvidir. Əttar əsərin qəhrəmanları olaraq quşları seçir: Simurq quşu Haqq və

həqiqəti, bu çətin yolda quşlara rəhbərlik edən Hüd-hüd yüksək şüura malik və artıq təriqət yollarını bilən, yəni sufi nəzəriyyəsinə görə, Haqqın substansiyasının təzahürü olan həqiqət mərhələsinə yetişmiş bir sufini təcəssüm etdirir. Digər quşlar isə yolun çətinliklərindən xəbərsiz, hər biri müəyyən qrup insanlara xas xüsusiyyətləri özlərində əks etdirən Haqq yolçuları – salikləridir.

Hüd-hüd öz məntiqi hekayətləri ilə quşları Simurqun axtarışına yollanmağa sövq edir, quşların bir qismi yorularaq yarı yolda qalır, bir qismi məhv olur. Nəhayət, yeddi vadidən – tələb, eşq, mərifət, istiğna, tövhid, heyrət, fəğrü-fəna vadilərindən keçən otuz quş məqsədə – Simurqa yetişirlər və burada "talib" və "tələb"in bir olduğunu anlayırlar. Qısaca desək, Əttar bu əsərdə ruhun cismani bağlılıqlardan xilas olaraq Haqqa çatmasının mistik yolunu göstərməklə Allahın tək və yeganə olduğunu, bütün yaradılmışların onun bir zərrəsi olduğunu ifadə edir və bu fəlsəfi həqiqətin dərki yolunu – seyr və sülukun mənzillərinin incəliklərini ədəbi boyalarla oxucuya təqdim edir.

Fəridəddin Əttara qədər bu mövzuda bir çox əsərlərin yazılmasına baxmayaraq, sonrakı müəlliflər əsərin ilkin mənbələrindən deyil, məhz Əttarın "Məntiqüt-teyr" məsnəvisindən bəhrələnmişlər.

Əttar məsnəviləri arasında həcmcə ən böyüyü "Müsibətnamə" əsəridir. Beytlərinin sayı bəzi nüsxələrdə 7.539-a çatan bu əsər 40 məqalədən və bu məqalələrdəki 354 hekayədən ibarətdir (Əttar Nişapuri, 1383b). Əsərin ən qədim əlyazma nüsxəsi h.670/m.1271-ci ilə aiddir (Ketabşenasi, 1374: 126).

"Müsibətnamə" əsəri Allahı tapmağa can atan mistik yolçu-salikin üzləşdiyi əziyyət və çətinliklər haqqındadır ki, yardımçı hekayətlərlə doludur və ruhun qeyb və şühudun müxtəlif mərtəbələrində seyrindən bəhs edir. Ə.Zərrinkubun qeyd etdiyi kimi, "Müsibətnamə"nin Əttarın digər məsnəvilərindən fərqi bu əsərin qəhrəmanının cismani deyil, ruhi olmasıdır (Zərrinkub, 1379: 264). Bu irfani səyahətnamədə ruhu "saliki-fikrət" adlandıran Əttarın qəhrəmanının axtarışları əvvəl heç bir nəticə vermir və o, pirə müraciət edərək, bir-bir bütün mərhələ və məqamları mürşidinin köməyi ilə keçir. Pir ona ilahi səltənətin sakinləri ilə üzləşməyi tövsiyə edir. Bu tövsiyəyə əsasən salik əvvəl Cəbrayılı və digər mələkləri görür, Cənnət və Cəhənnəmə gedir, Günəş və Aya baş vurur, 4 ünsürü, bitki və heyvanat aləmini tədqiq edir, şeytan, cinlər, Adəmlə və digər peyğəmbərlərlə söhbət edir. Lakin heç kəs və heç nə ona cavab tapmaqda kömək edə bilmir və ona məsləhət görürlər ki, cavabı öz ürəyində axtarsın. Beləliklə, 40 mərhələdən keçən salik axtardığını "öz daxilində" tapır.

Fəridəddin Əttarın "Divan"ı farsdilli poeziyanın məşhur nümunələrindən biridir. B.Füruzanfər Əttar "Divan"ının ən kamil nüxəsində, yəni Əttara mənsubluğu şübhəli olan bəzi şeir nümunələrinin də daxil olduğu Tehran çapında 9.943 beyt olduğunu qeyd edir (Əttar Nişapuri, 1376: 40). Böyük ehtimalla, Füruzanfər qalnız qəzəlləri nəzərdə tutur, belə ki, alimin özünün dörd əlyazma nüsxəsi əsasında tərtib etdiyi "Divan"da beytlərin sayı 11.178-dir. Bunlardan 1.463 beyt 30 qəsidəyə, 9.521 beyt 852 qəzələ və 194 beyt 20 tərcibəndə aiddir. Füruzanfər "Divan"dakı qəzəlləri əsasən üç növə ayırır: adi, irfani, qələndəri. Birinci növ qəzəllərin sayı 346, ikinci növ 417, üçüncü növ 71 ədəddir. Qəzəllərin 484-ü qısa və altılıq (müsəddəs), 274-ü uzun və səkkizlik (müsəmmən), 554-ü rədifli, 204-ü rədifsizdir (Əttar Nişapuri, 1376: 40-41). "Divan"ın ən qədim əlyazma nüsxəsi h.682/m.1283-cü ilə aiddir (Ketabşenasi, 1374: 107).

"Cəvahirnamə" və "Şərhül-qəlb" məsnəvilərini, Əttarın "Muxtarnamə"də qeyd etdiyi kimi, şair özü yandırdığı üçün hazırda bu ad altında mövcud olan əsərlər araşdırmaya cəlb edilməmişdir.

"Muxtarnamə" əsəri rübailər toplusudur. Əttar digər şairlər kimi rübailərini "Divan"a qatmayaraq, ayrıca kitab halına salmış və məzmuna görə tərtib etmişdir. 50 babdan ibarət olan bu topluda 2.279 rübai yer almışdır (Əttar Nişapuri, 1375b). "Muxtarnamə"nin ən qədim əlyazma nüsxəsi XIII əsrə aiddir (Ketabşenasi, 1374: 120).

Şəfii Kədkəninin fikrincə, "Əttar bir qədər rəhmsizlik edib bu rübailər arasından 300-400 rübaini seçib, qalanlarını "Cəvahirnamə" və "Şərhül-qəlb" kimi yandırsa idi, rübai yazmaq sahəsində bütün fars ədəbiyyatı tarixində ən böyük şair hesab olunardı" (Əttar Nişapuri, 1375b: 14). Həmçinin, alim "Muxtarnamə"nin dil üslubu və ədəbi dəyəri ilə yanaşı, xəyyamşünaslıqda da mühüm yer tutduğunu qeyd edir. Belə ki, Ömər Xəyyam adına məlum olan bir çox məşhur rübailər Xəyyama deyil, məhz Fərідəddin Əttara məxsusdur (Əttar Nişapuri, 1375b: 297-298) və Əttar "Muxtarnamə"sinin ən qədim nüsxələrində olduğu halda, Ömər Xəyyam rübailərinin qədim nüsxələrində olmayaraq, XV-XVI əsrlərə aid nüsxələrdə yer alır (Əttar Nişapuri, 1375b: 15-16).

"Təzkirətül-övliya" əsəri Fərideddin Əttarın yeganə nəsr əsəridir (Əttar Nişapuri, 1373). Sufi nəsrinin inkişafında böyük rol oynamış bu əsər müəllifin uzun illər topladığı məlumatlar əsasında meydana çıxmışdır. Bir çoxlarının, o cümlədən, Əbdürrəhman Caminin məşhur "Nəfəhatül-üns" təzkirəsinin yazılmasında bəhrələndiyi bu əsər XIII əsr fars nəsrinin ən gözəl nümunəsidir və uzun müddət mənbəşünas, şərqşünas və ilahiyyatçılara sufiliyin tarixinin öyrənilməsində mühüm mənbə rolunu oynamışdır. Əsərin ən qədim nüsxəsi h.627/m.1229-cu ilə aiddir (Ketabşenasi, 1374: 89).

Əsərin yazılmasına on beşə qədər səbəb göstərən (Əttar Nişapuri, 1373: 5-9) Əttar "Təzkirətül-övliya"nı yazarkən Hücviri Qəznəvinin (v.~1071) "Kəşfül-məhcub", Əbdürrəhman Sülləminin (v.1021) "Təbəqatüs-sufiyyə", Əbdülkərim Quşeyrinin (986-1012) "Risaleyi-Quşeyriyyə", Hafiz Əbu Nəimin (v.1038) "Helliyətül-övliya" əsərindən və bir sıra digər əsərlərdən istifadə etmiş, bundan başqa, bir çox şifahi rəvayətləri də öz əsərinə daxil etmişdir (Zərrinkub, 1379: 267). Ayrı-ayrı nüsxələrdə 72-dən 97 nəfərədək övliyanın həyatı haqqında məlumat və onların kəlamları verilir. Bu övliyalar arasında Mənsur Həllac (848-922), Şeyx Xərəqani (963-1033), Bayəzid Bistami (v.875), İbrahim Ədhəm (718-782) kimi məşhur sufilərin adlarını çəkmək olar.

B.Füruzanfər "Təzkirətül-övliya"nın dilinin sadə və şirin olduğunu qeyd edərək yazır: "...onun sehrli qələminin qüdrəti ilə bu şəxslərin tərcümeyi-halı çox həyəcanlandırıcı və valehedicidir" (Foruzanfər, 1353: 405). Əllamə Qəzvini də Əttarın nəsrinin "kamil və yüksək dərəcədə sadə və şirin" olduğunu vurğulayır (Əttar Nişapuri, 1373: həşt). Şəfii Kədkəni isə "Təzkirətül-övliya"nı nəsrlə yazılmış irfani əsərlərin ən yaxşısı adlandırır (Kədkəni, 1380: 42).

## Nəticə

Fərideddin Əttar Nişapurinin həyat və yaradıcılığı ilə bağlı mövcud məlumatların mühüm hissəsi klassik təzkirəçilik ənənəsinin xüsusiyyətlərini əks etdirir və bu səbəbdən müasir elmi tədqiqatlar üçün tənqidi yanaşma tələb edir. Şairin doğum və vəfat tarixləri, eləcə də əsərləri haqqında fərqli fikirlərin mövcudluğu ilkin mənbələrin müqayisəli təhlilinin zəruriliyini bir daha ortaya qoyur. Məqalədə istifadə olunan faktlar göstərir ki, Fərideddin Əttarın h.553/m.1158-ci ildə dünyaya gəlməsi və h.627/m.1229-cu ildə vəfat etməsi ehtimalı daha əsaslı görünür.

Əttarın ədəbi irsi əsasən məsnəvi janrında yazılmış irfani əsərlərdən ibarət olub, sufi düşüncəsinin bədii ifadəsi baxımından mühüm mərhələ təşkil edir. Ona aidliyi elmi

ictimaiyyət tərəfindən qəbul edilən əsərlər – "İlahinamə", "Əsrarnamə", "Məntiqüt-teyr", "Müsibətnamə", "Divan", "Muxtarnamə" və "Təzkirətül-övliya" – şairin həm nəzm, həm nəsr sahəsində yüksək bacarığını nümayiş etdirir. Xüsusilə "Məntiqüt-teyr" və "Müsibətnamə" əsərləri seyr və sülukun bədii-fəlsəfi ifadəsinin kamil nümunələri kimi diqqəti cəlb edir. Yalnız sufi ədəbiyyatının klassik nümayəndəsi deyil, həm də irfani düşüncənin poetik dillə ifadəsində yeni imkanlar açmış bu böyük sənətkarın yaradıcılığı Şərq ədəbi-mistik ənənəsinin inkişafında mühüm mərhələ olmaqla yanaşı, sonrakı dövrlərin sufi poeziyası üçün ilkin mənbə rolunu oynamışdır.

## QAYNAQLAR:


1. Axworthy, M. (2007). *Empire of the Mind: A History of Iran.* London: Hurst & Co
2. Bettina, L.K. (1984). *A Jungian Approach to Literature.* Carbondale: Southern Illinois University Press.
3. Ethe, H. (1980). *Catalogue of the Persian manuscripts in the India office library: Vol. I.* London: Habbs the printers of Southampton.
4. Nağısoylu, M. (2005). *Əhmədinin "Əsrarnamə" tərcüməsi*. Bakı: Nurlan.
5. Sells, M.A. (1996). *Early Islamic Mysticism: Sufi, Quran, Miraj, Poetic and Theological Writings.* New York: Paulist Press.
6. Бертельс, Е.Э. (1965). *Суфизм и суфийская литература. Избранные труды*. Т.3. М.: ГРВЛ, Наука.
7. Кныш, А.Д. (2004). *Мусульманский мистицизм: краткая история.* Перевод с англ. М.Г.Романова. Москва-Санкт-Петербург: Диля.
8. اشرف زاده رضا (1373). تجلی رمز و روایت در شعر عطار نیشابوری. تهران: انتشارات اساطیر
9. جوینی، محمد. (1385). تاریخ جهانگشای جوینی. در سه جلد، جلد اول. تهران: انتشارات دنیای کتاب
10. حائری، محمدحسن. (1381). متون عرفانی فارسی. تهران: نشر مرکز
11. حیدرخانی، حسین. (1376). اندیشه های عطار در لسان الغیب و وصلت نامه و مفتاح الاراده. تهران: انتشارات سنائی
12. زرین کوب، عبدالحسین. (1378). با کاروان حله. تهران: انتشارات علمی
13. زرین کوب، عبدالحسین. (1379). جستجو در تصوف ایران. تهران: انتشارات امیرکبی
14. سمرقندی، دولتشاه .(1318). تذکرة الشعراء. بسعی و اهتمام و تصحیح ادوارد براون انگلیسی. لیدن: بریل
15. شجیعی، پوران. (1378). مسافر سرگشته. تهران: انتشارات سیمای دانش
16. شفیعی کدکنی، محمدرضا .(1380). زبور پارسی. تهران: انتشارات آگه
17. صفا، ذبیح الله. (1372). تاریخ ادبیات در ایران.در پنج جلد، جلد دوم. تهران: انتشارات فردوس
18. عطار نیشابوری. (1377). گزیده رباعیات. گزینش و گزارش: دکتر رضا اشرف زاده. تهران: انتشارات اساطیر
19. طار نیشابوری، شیخ فریدالدین. (1373). تذکرة الاولیا. به کوشش ا. توکلی. تهران: انتشارات بهزاد
20. عطار نیشابوری، شیخ فریدالدین. (a 1375). منطق الطیر. به اهتمام دکتر احمد رنجبر. تهران: انتشارات اساطیر
21. عطار نیشابوری، شیخ فریدالدین. (1376). دیوان. با مقدمه بدیع الزمان فروزانفر. تهران: انتشارات نگاه
22. عطار نیشابوری، شیخ فریدالدین. (a 1383). اسرارنامه. با تصحیح دکتر سیدصادق گوهرین. تهران: انتشارات زوار
23. عطار نیشابوری، شیخ فریدالدین. (a1384). الهی نامه. به تصحیح فؤاد روحانی. تهران: انتشارات زوار
24. عطار نیشابوری، شیخ فریدالدین. (1384 b). منطق الطیر. تصحیح و تعلیقات: محمدرضا شفیعی کدکنی. تهران: انتشارات سخن
25. عطار نیشابوری، فریدالدین .(1375 b). مختارنامه. تصحیح و مقدمه: محمدرضا شفیعی کدکنی. تهران:

انتشارات سخن

26. عطار نیشابوری، فریدالدین. (b1383). مصیبت نامه. به اهتمام و تصحیح دکتر نورانی وصال. تهران: انتشارات زوار

27. عطار نیشابوری، فریدالدین ابوحامد بن ابوبکر ابراهیم .(1339). خسرونامه. به تصحیح و اهتمام احمد سهیلی خوانساری. تهران: انتشارات زوار

28. عوفی، محمد (1321). لباب الالباب. به سعی و تصحیح ادوارد براون. در دو جلد، جلد دوم. لیدن: بریل

29. فروزانفر، بدیع الزمان .(1353). شرح احوال و نقد و تحلیل آثار شیخ فریدالدین محمد عطار نیشابوری. تهران: انتشارات کتابفروشی دهخدا

30. فریدالدین عطار نیشابوری. (1374). به کوشش علی میرانصاری. تهران: انتشارات انجمن آثار و مفاخر کتابشناسی فرهنگی

31. مدرس، میرزا محمدعلی .(1369). ریحانة الادب. در هشت جلد، جلد چهارم. تهران: انتشارات خیام

32. مولوی، مولانا جلال الدین محمد بلخی (1377). مثنوی معنوی.تهران: اقبال

33. نظمی، علی. (1378). دویست سخنور. تهران: انتشارات سروش

34. نفیسی، سعید (1320). جستجو در احوال و آثار فریدالدین عطار نیشابوری. تهران: انتشارات اقبال

35. نفیسی، سعید .(1344). سرچشمه تصوف در ایران. تهران: انتشارات مروی

36. نوربخش، جواد. (1384). مردان صوفی. تهران: انتشارات یلدا قلم

37. هدایت، رضا قلی خان. (1305). ریاض العارفین. چاپ اول، تهران

## A soul journeying through the word: Farid al-Din Attar of Nishapur

**SHAHLA ABDULLAYEVA**[**]

### Abstract

*Farid al-Din Attar of Nishapur, one of the most prominent representatives of Persian Sufi literature of the twelfth and thirteenth centuries, played a significant role in the formation of Eastern mystical (irfani) thought. His literary legacy is closely associated with the development of the masnavi genre in Sufi poetry, the deepening of symbolic and artistic modes of thought, and the systematic poetic articulation of mystical concepts. Attar`s works exerted a profound influence on the philosophical and mystical worldview of many later Sufi poets, most notably Mawlana Jalal al-Din Rumi.*

*The information concerning Attar`s life and literary heritage found in early sources is largely legendary in nature and often contradictory. The dates of his birth and death, as well as the number of works attributed to him, have long remained subjects of scholarly debate. For this reason, the critical and comparative study of Attar`s intellectual legacy is of particular relevance.*

*The present article examines disputed aspects of Farid al-Din Attar`s biography on the basis of primary sources and academic research. It also provides a general characterization of the works whose authorship is considered beyond doubt – "Ilahi-Nama" ("Divine Book"), "Asrar-Nama" ("Book of Secrets"), "Manteq ut-Tayr" ("The Conference of the Birds"), "Mosibat-Nama" ("Book of Afflictions"), "Diwan" (Collection of qasida and ghazals), "Muxtar-Nama" (Book of quatrams), "Tadhkirat al-Awliya" ("Memorial of the Saints").*

**Keywords:** *Farid al-Din Attar of Nishapur, "Ilahi-Nama", "Asrar-Nama", "Manteq ut-Tayr", "Mosibat-Nama", "Diwan", "Muxtar-Nama", "Tadhkirat al-Awliya", primary sources*

[**] Doctor of Philosophy in Philology; Archive of Socio-Political Documents; abdullayevashakhla@gmail.com; https://orcid.org/0000-0003-3467-0881

## Душа, странствующая в слове: Фарид ад-Дин Аттар Нишапури

**ШАХЛА АБДУЛЛАЕВА*****

**Резюме**

*Фарид ад-Дин Аттар Нишапури, один из выдающихся представителей персоязычной суфийской литературы XII–XIII веков, сыграл значительную роль в формировании восточной суфийской мысли. Его творчество тесно связано с развитием жанра маснави в суфийской поэзии, углублением символико-художественного мышления и систематическим поэтическим выражением суфийских понятий. Произведения Аттара стали важным источником влияния на формирование философско-мистического мировоззрения многих суфийских поэтов последующих эпох, в особенности Мавланы Джалал ад-Дина Руми.*

*Сведения о жизни и литературном наследии Аттара, представленные в ранних источниках, во многом носят легендарный характер и нередко противоречат друг другу. Даты рождения и смерти поэта, а также количество приписываемых ему произведений на протяжении длительного времени оставались предметом научных споров. В связи с этим исследование личности и творчества Аттара на основе критико-сравнительного подхода приобретает особую актуальность.*

*В представленной статье на основе первоисточников и научных исследований анализируются спорные аспекты биографии Фарид ад-Дина Аттара Нишапури. Кроме того, в статье рассматриваются произведения, авторская принадлежность которых в научной литературе не вызывает сомнений – «Илахи-нама» («Книга о Боге»), «Асрар-нама» («Книга тайн»), «Мантик ат-тайр» («Язык птиц»), «Мусибат-нама» («Книга Страданий»), «Диван» (Сборник касыд и газелей) «Мухтар-нама» (Сборник четверостиший), «Тазкират ал-аулийа» («Рассказы о святых»).*

**Ключевые слова:** *Фарид ад-Дин Аттар Нишапури, «Илахи-нама», «Асрар-нама», «Мантик ат-тайр», «Мусибат-нама», «Диван», «Мухтар-нама», «Тазкират ал-аулийа», первоисточники*

| | |
|---|---|
| **Redaksiyaya daxil olma tarixi:** | **02.09.2025** |
| **Çapa qəbul tarixi:** | **30.09.2025** |
| **Çap olunma tarixi:** | **28.10.2025** |

*** Кандидат филологических наук; Архив социально-политических документов; abdullayevashakhla@gmail.com; https://orcid.org/0000-0003-3467-0881